**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
dos. Zaur Məmmədov
"_____" ___________ 2026-cı il

**Fənn sillabusu**

**İxtisasın şifri və adı:** 6007008 - "Torpaqşünaslıq və aqrokimya"
**Fakültə:** Aqrar və mühəndislik
**Kafedra:** Aqrar elmlər
**I.Fənn haqqında məlumat**:
**Fənnin adı:S/F "**Torpaq kadastrı"
**Kodu:** İPF-B17
**Tədris ili:** 2025-2026
**Semestr:**II(yaz)
**Tədris yükü:**Cəmi: 210 saat. Auditoriya saatı - 75 (45 saat mühazirə, 30 saat laborotoriya)
**Tədris forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 7 kredit
**II.Müəllimlər haqqında məlumat:**
**1.Adı, soyadı, elmi dərəcəsi və elmi adı:** Cəfərov Əli Musa oğlu, a.ü.f.d., dosent
**Kafedranın ünvanı:**Lənkəran ş.,Fizuli küç.170
**Məsləhət günləri və saatı:** V gün saat 14.00-17.30.
**E-mail ünvanı:** alicafarov1959@mail.ru
**2.Adı, soyadı, elmi dərəcəsi və elmi adı:** Şükürov Elşad Osman oğlu (laboratoriya)
**Kafedranın ünvanı:**Lənkəran ş.,Fizuli küç.170
**Məsləhət saatı:** 4-cü gün, saat 14:00
**E-mail ünvanı:** shukurovelsad@gmail.com
**III.Tövsiyyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas:**

1. Məmmədov Q.S.Yaqubov, Q.Ş. Azərbaycan Respublikasının torpaqlarının irimiqyaslı tədqiqi və xəritələşdirilməsinə dair təlimat. Bakı, 2002, 208
2. Piriyev R.X. Geodeziya və topoqrafiyanın əsasları. Bakı, 1994
3. Piriyev R.X. Kartoqrafiya. Bakı, Maarif, 1975
4. Апарин Б.Ф., Касаткина Г.А. Картография почв: Учебно-методическое пособие, СПБ: Изд.-во С.Петерб.ун-та, 2004, 84 с.
5. Azərbaycanın torpaq atlası. Bakı, 2007
6. Azərbaycan Respublikasının ekoloji atlası.Bakı, 2009
7. Məmmədov Q.Ş. Azərbaycan Respublikasının Dövlət Torpaq kadastrı hüquqi, elmi və praktiki məsələləri. Bakı, Elm, 2003, 448 s.
8. Məmmədov Q.Ş. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı, Elm, 1998, 282s.
9. Azərbaycan dövlət torpaq xəritəsinin legendası / Q.Ş.Məmmədov, M.P.Babayev, Ş.G.Həsənovun redaktəsi ilə. Bakı. Elm, 2003, 68 s.

**Köməkçi WEB-mənbələr**
http://www.statepropety.gov.az
http://www.agro.gov.az.

**IV.Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədris olunmasına zərurət yoxdur.
**V.Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.
**VI.** Fənnin təsviri və məqsədi: Torpaq kadastrı fənni vasitəsilə, torpağın istehsal vasitəsi kimi fərqli cəhətləri, torpaq kadastrının tarixi, kadastrın növləri və prinsipləri, kadastr sənədlər sistemi, torpaq rentası və onun formaları və torpaq-kadastr rayonlaşdırılması, torpaqların qiymətləndirilməsi üsulları haqqında tələbələrə fundamental biliklər çatdırılır. Torpaq kadastrı

yerquruluşu, torpaqşünaslıq, əkinçilik, torpaq hüquqi, torpaq bazarı, şəhərsalma kadastrı və digər fənləri bir-birinə bağlayan, bu fənlər arasında körpü rolunu oynayan bir fəndir. Bu fənn çərçivəsində eyni zamanda bəzi praktiki vərdişlərin qazanılması da nəzərdə tutulmuşdur. Torpaq kadastrı fənni VIII semestrdə torpaqşünaslıq, yerquruluşu, torpaq və şəhər kadastrı ixtisasları üzrə təhsil alan tələbələrə tədris olunan vacib fənlərindən biridir. Bu fənn 8 semestr ərzində həm ana kafedranın tədris proqramında, həm də başqa kafedralar tərəfindən tədris olunan bir sıra fənnlərlə bilavasitə və dolayı ilə bağlıdır: kadastrın əsasları, torpaqşünaslıq, əkinçilik və bitkiçiliyin əsasları, torpaqların bonitirovkası, torpaq bazarı və s. Bu fənn vasitəsilə tələbələr 8 semestr ərzində əldə etdikləri biliklərin məntiqi nəticəsinə gəlib çıxırlar. Torpaqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə "torpaq kadastrı" fənni üzrə müasir biliklərin verilməsi onların həm, nəzəri, həm də praktiki vərdişlərə malik kadr kimi yetişməsində böyük əhəmiyyət kəsb edə bilər. Tələbələr bu kursu mənimsəməklə torpaq kadastrının aparılması qaydalarını öyrənirlər.

VII. Kursun qısa təsviri: Torpaq kadastrı fənni 75 auditoriya - 45 mühazirə və 30 seminar saatlarından ibarətdir. Burada çöl və laboratoriya məşğələləri nəzərdə tutulmamışdır. Kurs ilk növbədə tələbələrdə ilkin və fundamental nəzəri biliklərin əldə edilməsinə istiqamətlənmiş və "ixtisasa giriş" funksiyasına malikdir. Burada bəzi mövzuların 2, bəzilərinin isə 4 saat ərzində keçilməsi nəzərdə tutulmuşdur.

***Kursun spesifik məqsədləri*** :

-Tələbələrə akademik yardım göstərmək, onların potensialının reallaşdırılması imkanlarını artırmaq

-Tələbələrin fəallığına dəstək vermək

-Torpaq kadastrı, o cümlədən kadastr elminə maraq yaratmaq və bu marağı inkişaf etdirmək

-Tələbələrin növbəti semestrlərdə "Torpaq kadastrıının" və "Torpaq xəritələrinin" tərtib olunmasına daha yaxşı mənimsəməsi üçün özül yaratmaq.

**VII. Davamiyyətə verilən tələblər** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir. Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq meyarları nəzərə alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.*

*-0 bal- suala cavab yoxdur.*

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

***Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)***

91-100 bal- əla (A)

81-90 bal-çox yaxşı (B)

71-80 bal- yaxşı (C)
61-70 bal- kafi (D)
51-60 bal –qənaətbəxş (E)
51-baldan aşağı- qeyri-kafi (F)

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X.Təqvim mövzu planı: Mühazirə 45 saat , laboratoriya 30 saat.Cəmi 75 saat.**

| № | Mühazirə | Müh. | Tarix |
|---|---|---|---|
| | **I kollokvium mövzuları** | | |
| 1 | **<u>Mövzu №1</u>: Torpaq kadastrının aparılması-nın və zəruriliyi predmeti.**<br>**Plan: 1. Torpaq kadastrının aparılmasının zəruriliyi**<br>**2. Torpaq kadastrının aparılmasının predmeti.**<br>**<u>Qısa icmalı</u>:** *Torpaq kadastrı aqronomları, iqtisadçıları, yerquruluşçularını, coğrafiyaşünasları maraqlandıran vacib elmi-nəzəri və praktiki bir məsələdir; torpaq kadastrının tərifi; Torpağın əsas əmək vasitəsi kimi digər istehsal vasitələrindən fərqi.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>:**<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 2 | **<u>Mövzu № 2:</u> Torpaq kadstrının tarixi.: Genetik torpaqşünaslığa qədərki dövr.**<br>**Plan: 1. Torpaq kadstrının tarixi.: Genetik torpaqşünaslığa qədərki dövr.**<br>**2. Sovet dövründə qədərki, Rusiya torpaq kadastrının inkişafı.**<br>**<u>Qısa icmalı</u>:** *Qədim Misir və Mesopatamiyada torpaq kadastrı; Misirdə torpaqların kateqoriyalaşdırılması; Mesopotamiyada Hammurapi qanunları. Qədim Roma; kadastr sözünün mənası, Serviy Tuli, Yuli Sezar, Oktavian Avqustun kadastr tədbirləri; Bizans - eramızın VIII əsrində "Torpaq qanunu", "Geoponika"; Sasanilər dövləti - I Qubadın və I Xosrov Anuşiravanın torpaq-kadastr tədbirləri; Qərbi Avropada-Frank kralı Böyük Karlın torpaq siyahıyaalınması, İstilaçı Vilhelmin "Məşhər Kitabını", II Valdemarenin, II Fridrixin və I Eduardın torpaq siyahıyaalması; Rus torpaq kadastrı - "Yazı Kitabları", 1718-ci ildə rus çarı I Pyotr göstərişi, 1837-ci il fərmanı; Dokuçayev-Sibirtsev mərhələsi; V.V.Dokuçayevin Nijneqorod və Poltava ekspedisiyaları; Dokuçayev torpaqların qiymətləndirilməsi haqqında; Torpaqların müqayisəli qiymətləndirilməsində N.M.Sibirtsevin xüsusi rolu.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>:**<br>**1.** Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 3 | **<u>Mövzu № 3</u>: Keçmiş SSRİ-də və Azərbaycanda torpaq kadastrının inkişafı.**<br>**Plan: 1. Sovet dövründə SSR-i torpaq kadastrının inkişafı**<br>**2. Sovet dövründə Azərbaqcanda torpaq kadastrının inkişafı**<br>**<u>Qısa icmalı</u>:** *Sovet dövründə SSRİ-də və Azərbaycanda torpaq kadastrının inkişafı – ilk illər torpaqların qiymətləndirilməsinə münasibət, 1955-ci ildə, keçmiş Sov. İKP Mk-nın və Nazirlər kabinetinin 9 mart tarixli "kənd təsərrüfatında planlaşdırma təcrübəsinin dəyişdirilməsi" haqqında qərarı; S.S.Sobolyevin gördüyü işlər; Torpaqların keyfiyyətcə qiymətləndirilməsinin respublikamızda tarixi mərhələləri (dövrləri): I mərhələ – 1965-ci ilə qədərki dövr, II mərhələ – 1966-1969-cı illər, III mərhələ – 1969-cu ildən 1996-cı ilə* | 2 | |

| | | | |
|---|---|---|---|
| | *qədərki dövr, IV mərhələ - 1996-cı ildən sonrakı dövr. Bonitirovka tədqiqatları (70-80-ci illərdə): I. Otlaq torpaqlarının bonitirovkası, II. Cayaltı və çayayararlı torpaqların bonitirovkası, III. Üzümaltı torpaqların bonitirovkası, IV. Pambıq və taxılaltı suvarılan torpaqların bonitirovkası, V. Meşə torpaqlarının bonitirovkası.*<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | | |
| 4 | **Mövzu № 4**: **Torpaq kadstrının növləri və əsas prinsipləri.** *Torpaq kadastrının növləri - əsas torpaq və cari torpaq kadastrı; Dövlət torpaq kadastrının əsas prinsipləri - torpaq kadastrının vahidliyi, torpaq kadastrının qanunuliyi, torpaq kadastrının fasiləsizliyi, torpaq kadastırının obyektivliyi, torpaq kadastrının əyaniliyi və sadəliyi.*<br>***Plan: 1***. **Torpaq kadastrının növləri**<br>***2***. **Torpaq kadastrının əsas prinsipləri**<br>**Qısa icmalı**:<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 5 | **Mövzu № 5**: **Torpaq kadstr sənədləri sistemi.**<br>**Plan: 1. Torpaq kadastr sənədləri sistemi.**<br>**Qısa icmalı**: *Dövlət torpaq kadastr sənədləri sistemi - topraq mülkiyyət hüququna dair dövlət aktı, torpaqdan daimi isrifadə hüququna dair dövlət aktı, torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə, torpaqdan müvəqqəti istifadə hüququna dair şəhadətnamə, notarial qaydada təsdiq edilmiş və qeydiyyata alınmış icarə müqavilələri*.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| | **II kollokvium mövzuları** | | |
| 6 | **Mövzu № 6**: **Dövlət torpaq kadstrının obyekti və onun əsas kateqoriyaları.**<br>**Plan: 1. Dövlət torpaq kadastrının obyekti**<br>2. **Dövlət torpaq kadastrının əsas prinsipləri**<br>3. **Dövlət torpaq kadastrının əsas kateqoriyaları**<br>**Qısa icmalı**: *Dövlət torpaq kadastrının obyekti - Azərbaycan Respublikasının vahid torpaq fondu; Torpaqların məqsədli təyinatı; Torpaqların hüquqi rejimi; Torpağın əsas kateqoriyaları - kənd təsərrüfatı təyinatlı torpaqlar, yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin) torpaqları, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar, xüsusi qorunan ərazilərin torpaqları, meşə fondu torpaqları, su fondu torpaqları, ehtiyat fondu torpaqları.*<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 7 | **Mövzu № 7**: **Kənd təsərrüfatı yerlərinin (uqodiyalarının) təsnifatı və mülkiyyət formaları üzrə paylanması.**<br>**Plan: 1. Kənd təsərrüfatı yerlərinin (uqodiyalarının) təsnifatı**<br>**2. Kənd təsərrüfatı yerlərinin və mülkiyyət formaları üzrə paylanması.**<br>**Qısa icmalı**: *Əkin, çoxillik əkmələr, dincə qoyulmuş torpaqlar,* | 2 | |

| | | | |
|---|---|---|---|
| | *biçənəklər və örüş. Dövlət mülkiyyəti, bələdiyyə mülkiyyəti və xüsusi mülkiyyət.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | | |
| 8 | **<u>Mövzu № 8</u>**: ***Torpaq kadstrının aparılması qaydaları.***<br>***Plan: 1.* Torpaq kadastrının aparılması qaydaları.**<br>***2.* Torpaq kadastrının aparılmasının əsas mahiyyəti**<br>**<u>Qısa icmalı</u>**: *Dövlət torpaq kadastrının dövlət tədbiri olmasını şərtləndirən səbəblər; Əmlak Məsələləri Dövlət Komitəsinin digər orqanlarla birlikdə dövlət torpaq kadastrının aparılması ilə bağlı vəzifələri; torpaq-kadastr məlumatlarının dəqiqləşdirilməsi, yeniləşdirilməsi, hesabatların tərtibatı qaydaları.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 9 | **<u>Mövzu №9</u>**: **İnzibati rayonun torpaq kadastrı.**<br>**Plan: 1. İnzibati rayonun torpaq kadastrının məzmunu, məqsədi və sənədləri**<br>**2. İnzibati rayonda torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı və qiymətləndirmə işləri**<br>**<u>Qısa icmalı</u>**: *İnzibati rayonda torpaq kadastrının məzmunu və məqsədləri. İnzibati rayonun torpaq-kadastr sənədləri. İnzibati rayonda torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı. İnzibati rayonda torpaqların kəmiyyət və keyfiyyət uçotu. İnzibati rayonda torpaq qiymətləndirmə işləri. İnzibati rayonun torpaq balansı.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 10 | **<u>Mövzu №</u> 10**: **Torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı.**<br>**Plan: 1. Torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı**<br>**<u>Qısa icmalı</u>**: *Torpaq sahəsi anlayışı; Torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatı ilə bağlı reystrə daxil olan məlumatlar - torpaq sahəsi üzərində hüququ əldə edən şəxs barədə məlumat, torpaq sahəsinin təsviri (torpağın kateqoriyası, istifadə məqsədi, torpaq uqodiyasının növü, torpaq sahəsinin ölçüsü, sərhədləri, kadastr nömrəsi və digər səciyyəvi xüsusiyyətləri göstərilməklə), torpaq sahəsinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi haqqında müqavilənin şərtləri, sahənin istifadəsində müəyyən edilmiş servitutlar, öhdəliklər və məhdudiyyətlər haqqında məlumatlar, torpaq sahəsi barədə sərəncam verilməsinə dair əqdlərin bağlanması və digər fəaliyyət barədə məlumatlar, torpaq sahəsinə dair əqdlərin bağlanmasına qadağanlar müəyyən edilməsinə dair məlumatlar, torpaq sahəsinin dövlət və bələdiyyə ehtiyacları üçün özgəninkiləşdirilməsi barədə qərarların tarixi və nömrəsi qanunvericilikdə müəyyən edilmiş digər məlumatlar.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| | **III kollokvium mövzuları** | | |

| | | | |
|---|---|---|---|
| 11 | <u>**Mövzu№**</u> **11**: **Torpaqların kəmiyyət və keyfiyyətcə qeydiyyatı.**<br>**Plan: 1. Torpaqların kəmiyyət və keyfiyyətcə qeydiyyatı.**<br><u>**Qısa icmalı**</u>: *Torpaq kadastrının aparılması qayaları çərçivəsində inzibati rayonlar üzrə torpaqların kəmiyyətcə qeydiyyatı. Torpaqların keyfiyyət dəyişkənliklərinin kadastr sənədlərində qeydiyyatı. Kəmiyyətcə və keyfiyyətcə dəyişikliklərə aid kadatr sənədlərinin tərtibi.*<br><u>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**</u>:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 12 | <u>**Mövzu№**</u> **12**: **Torpaqlarınn bonitirovkası: Əsas bonitet şkalasının tərtibi.**<br>**Plan: 1. Torpaqların bonitirovkası**<br>**2. Əsas bonitet şkalasının tərtibi**<br><u>**Qısa icmalı**</u>: *Torpaqların bonitirovkasının predmeti və vəzifələri; Qiymət meyarlarının seçilməsi; Torpaqların bonitirovkasının metodikası - kameral-hazırlıq mərhələsi, çöl-laboratoriya tədqiqatları mərhələsi, yekunlaşdırıcı mərhələ; Etalon torpağın seçilməsi; Əsas bonitet şkalasının tərtibi.*<br><u>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**</u>:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 13 | <u>**Mövzu№**</u> **13**. **Geniş (Açıq) və yekun bonitet şkalalarının tərtibi.**<br>**Plan: 1. Geniş (Açıq) və yekun bonitet şkalalarının tərtibi.**<br>**2. Tip və yarımtip yekun bonitet skalalarının tərtibi**<br>**3. Torpaqların aqroistehsalat qruplaşdırılması**<br><u>**Qısa icmalı**</u>: *Torpağın xassə və əlamətlərinə görə təshih əmsallarının müəyyən edilməsi; Açıq bonitet şkalalarının tərtib edilməsi; Orta hesabi bonitet balının hesablanması; Yekun bonitet şkalasının tərtib edilməsi; Torpaqların müqayisəli dəyərlilik əmsalının hesablanması.*<br><u>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**</u>:<br>**1.** Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 14 | <u>**Mövzu№**</u> **14**: **Torpaqların aqroistehsalat qruplaşdırılması.**<br>**Plan: 1.**<br><u>**Qısa icmalı**</u>: *Torpaqların aqroistehsalat qruplaşdırılması: I-yüksək keyfiyyətli torpaqlar, II-yaxşı keyfiyyətli torpaqlar, III-orta keyfiyyətli torpaqlar, IV-aşağı keyfiyyətli torpaqlar, V-şərti yararsız torpaqlar.*<br><u>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**</u>:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 15 | <u>**Mövzu№**</u> **15**: **Torpaq rentası və onun formaları.**<br>**Plan: 1. Torpaq rentasının formaları (diferensial və mütləq)**<br><u>**Qısa icmalı**</u>: *Feodal torpaq rentasının formaları: 1) işləyib ödəmə və yaxud biyar; 2) məhsul və yaxud töycü; 3) pul rentası. Kapitalizmdə torpaq rentasının iki əsas forması: diferensial və mütləq renta.*<br><u>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**</u>:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |

| | | | |
|---|---|---|---|
| 16 | **<u>Mövzu№</u> 16**: **Torpaqların iqtisadi qiymətləndirilməsi.**<br>**Plan: 1. Torpaqların iqtisadi qiymətləndirilməsi**<br>**2. Torpaqların iqtisadi qiymətləndirilməsinin mahiyyəti**<br>**<u>Qısa icmalı</u>**: *İqtisadi qiymətləndirmənin tərifi; Ümumi məhsulun dəyəri; Məsarif ödənişi; Təmiz gəlir və Differensial gəlir; məhsulun alış qiyməti; məhsulun fərdi qiyməti; bazis məhsuldarlıq; rentabelliyin normativ səviyyəsi.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 17 | **<u>Mövzu№</u> 17: Torpaqların normativ qiymətləndirilməsi.**<br>**Plan: 1. Torpaqların normativ qiymətləndirilməsi**<br>**2. Torpaqların pulla qiymətləndirilməsi**<br>**<u>Qısa icmalı:</u>** *S.D.Çeremuşkin düsturu - P = TG x Ə; S.D.Çeremuşkin; İ.İ.Karmanov düsturu: torpaq-iqlim düsturu; torpaq-ekoloji düstur (TEi); Li düsturu: Torpağın normativ qiyməti.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 18 | **<u>Mövzu№</u> 18: Respublika ərazisinin torpaq kadastr rayonlaşdırılması.**<br>**Plan: 1. Respublika ərazisinin torpaq-kadastr rayonlaşdırılması.**<br>**2. Torpaq kadastr rayonlaşdırılmasının mahiyyəti**<br>**<u>Qısa icmalı</u>**: *H.Əliyev və B.Nəzərovanın təbii-kənd təsərrüfatı rayonlaşdırılması: təbii - kənd təsərrüfatı qurşaq; təbii – kənd təsərrüfatı zona; təbii – kənd təsərrüfatı əyalət; təbii – kənd təsərrüfatı dairə; təbii – kənd təsərrüfatı rayon; Azərbaycanın 25 torpaq-kadastr rayon 3 yarımrayona bölünməsi.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri. Bakı, 2003.səh.448 s. | 2 | |
| 19 | **<u>Mövzu№</u> 19: Xarici ölkələrdə torpaq kadastrı işləri.**<br>**Plan: 1. Xarici ölkələrdə torpaq kadastrı işləri.**<br>**2. ABŞ-da və Kanadada torpaq kadastr işləri**<br>**3. İngiltərədə və Fransada torpaq kadastr işləri**<br>**<u>Qısa icmalı</u>**: *Xarici ölkələrdə torpaq münasibətlərinin xüsusiyyətləri. Xarici ölkələrdə torpaqların mülkiyyətə verilməsi. Xarici ölkələrdə torpaqların icarəyə verilməsi və alqı-satqısı. Xarici ölkələrdə əcnəbilərin torpaq münasibətlərində iştirakı. Amerika Birləşmiş Ştatları. Kanada. İngiltərə. Fransa.*<br>**<u>Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)</u>**:<br>**1.**Магазинщиков Т.П. Земельный кадастр. Львов, 1980.<br>**2.**Дегтяров И.В. Земельный кадастр. М.,1979. | 2 | |
| 20 | **<u>Mövzu№</u> 20. Torpaq kadastr tədbirlərini tənzimləyən hüquqi normativ aktlar.**<br>**Plan: 1. Torpaq kadastr tədbirlərini tənzimləyən hüquqi normativ aktlar.**<br>**2. Torpaq islahatı haqqında (16 iyul 1996) qanunun torpaq kadastrının aparılmasına təsiri**<br>**<u>Qısa icmalı</u>**: *Torpaq islahatı haqqında qanun (16 iyul 1996-cı il); Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında qanun (22 dekabr 1998-ci il); Torpaq bazarı haqqında qanun* | 2 | |

| | | | |
|---|---|---|---|
| | *(7 may 1999-cu il); Azərbaycan Respublikasında torpaqların normativ qiymətinin müəyyən edilməsi barədə əsasnamə (Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 saylı qərarı ilə təsdiq edilmişdir); Azərbaycan Respublikasının Torpaq Məcəllləsi (25 iyun 1999-cu il tarixli qanunla təsdiq edilmişdir).*<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**:<br>**1.**Məmmədov Q.Ş. Azərbaycanda Torpaq islahatı: hüquqi və elmi-ekoloji məsələlər. Bakı: Elm, 2002, 412 s.<br>**2.** www.e-emdk.gov.az<br>**3.** www.e-qanun.az/framework | | |
| 21 | **MövzuNo 21. Ənənəvi torpaq kadastr xəritələri.**<br>**Plan: 1. Ənənəvi torpaq kadastr xəritələri.**<br>**2. Torpaq münbitliyinin müqayisəli qiymətləndirilməsi**<br>**Qısa icmalı**: *Torpaq üzərində hüquqların dövlət qeydiyyatı sənədlərində olan torpaq-kadastr xəritələri. Torpaqların münbitliyinin müqayisəli qiymətləndirilmə xəritəsi. Torpaqların aqroistehsalat qruplaşması xəritəsi. Torpaq islahatı zamanı torpaq kadastr sənədlərinin hazırlanmasında tətbiq olunan xəritələşdirmə işləri. Torpaq kadastr tədbirləri çərçivəsində torpaqların iri miqyaslı tədqiqi və xəritələşdirilməsi prosesi.*<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**:<br>**1.**Məmmədov Q.Ş.,Cəfərov A.B., Oruclu A.S. Torpaqların bonitirovkası. Bakı, 2015, 238 s.<br>**2.**Məmmədov Q.Ş. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı: Elm, 1998, 282 s. | 2 | |
| 22 | **MövzuNo 22. Torpaq kadastr xəritələrinin tərtibində coğrafi informasiya sistemlərinin (CİS) tətbiqi.**<br>**Plan: 1. Torpaq kadastr xəritələrinin tərtibində coğrafi informasiya sistemlərinin (CİS) tətbiqi.**<br>***Qısa icmalı***: *Coğrafi informasiya sistemləri haqqında ümumi məlumat. Torpaq geoməkan məlumatlar sisteminin yaradılmasının xüsusiyyəti. Ənənəvi və coğrafi informasiya sistemlərində tərtib olunan torpaq kadastr xəritələrinin fərqi. Elektron kənd təsərrüfatı xəritələrinin tərtibi.*<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**:<br>**1.**Məmmədov Q.Ş.,Cəfərov A.B., Oruclu A.S. Torpaqların bonitirovkası. Bakı, 2015, 238 s.<br>**2.**www.e-emdk.gov.az | 2 | |
| 23 | **MövzuNo 23. Dövlət torpaq kadastrını həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı.**<br>**Plan: 1. Dövlət torpaq kadastrını həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı.**<br>**2.Daşınmaz Əmlak kadastrı və ünvan reyestr xidməti**<br>**3.Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyi**<br>***Qısa icmalı***: Əmlak Məsələləri Dövlət Komitəsi. Daşınmaz əmlakın dövlət reyestri xidməti. Daşınmaz əmlakın kadastrı və ünvan reyestri xidməti. Hərracların təşkili üzrə auksion mərkəzi. Torpaqların dövlət idarəetməsinin təşkili üzrə dövlət agentliyi. İnformasiya texnologiyaları və məlumat idarəetmə mərkəzi.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə)**:<br>**1.**www.e-emdk.gov.az | 1 | |
| | **Cəmi:** | 45 | |

## Laboratoriya məşğələsinin mövzuları

| № | Laboratoriya mövzuları | saat | |
|---|---|---|---|
| 1 | Torpaq kadastr işlərinin aparılması zəruriliyi | 2 | |
| 2 | Torpaq kadastr işlərinin aparılması üsulları | 2 | |
| 3 | Torpaq kadastrının obyekti və onun əsas kateqoriyaları | 2 | |
| 4 | Azərbaycan Respublikasının vahid torpaq fondunun tərkibi | 2 | |
| 5 | Torpaq kadastrının növləri və əsas prinsipləri | 2 | |
| 6 | Dövlət torpaq kadastrının tərkib hissələri | 2 | |
| 7 | Torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı | 2 | |
| 8 | Dövlət torpaq kadastr sənədləri sistemi | 2 | |
| 9 | Dövlət torpaq kadastrının obyekti | 2 | |
| 10 | Torpaqların bonitirovkası | 2 | |
| 11 | Torpaqların iqtisadi qiymətləndirilməsinin təyini | 2 | |
| 12 | Respublika ərazisində torpaq-kadastr rayonlaşdırılması | 2 | |
| 13 | İnzibati rayonun torpaq kadastrının təyini | 2 | |
| 14 | Torpaqların aqroistehsalat qruplaşdırılmasının təyini | 2 | |
| 15 | Xarici ölkələrdə torpaq kadastr işlərinin aparılması yolları | 2 | |
| | **Cəmi:** | **30 saat** | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

1. Torpaq kadastrının əsas anlayışlarını. Xəritələrin riyazı və coğrafi əsasını. Xəritələrin təsnifatını
2. Torpaq kadastr məlumatlarının toplanması Torpaq kadastrının kartoqrafik generalizasiyasını. Torpaq kadastr xəritələrinin tərtibi üçün təsvir üsullarını
3. Torpaq-kadastr xəritələrinin tərtibini. Elektron kənd təsərrüfatı xəritələrinin tərtibini. Torpaq kadastr xəritələrinin tərtibində tətbiq olunan müassir geodeziya ölçü alətlərini və AzPOS sisteminin mahiyyətini
4. Kadastr xəritələrin təsnifatını sərbəst bilmək. Dövlət torpaq kadastrının tərkib hissələrinin muəyyən edilməsi.
5. Respublika ərazisinin torpaq- kadastr rayonlaşdırılması.
6. İnzibati rayonun torpaq kadastrı.
7. Torpaq kadastr xəritələrinin kartoqrafik generalizasiyasını. Respublikamızın torpaqlarının iri miqyaslı tədqiqi və torpaq kadastr xəritələşdirilməsi prosesini
8. Torpaq kadastrı üzrə zəruri biliklərə. Torpaq kadastrı xəritələrinin tərtibi üçün lazım olan təsvir üsullarının mənimsənilməsi üzrə biliklərə
9. Xarici ölkələrdə torpaq kadastr işlərinə. Torpaq kadastr xəritələrinin tərtibinə. Elektron kənd təsərrüfatı xətitələrinin tərtibinə

**XII.Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş)
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;

**XIII.Fənn üzrə təlimin nəticələri:**

**FTN 1.**Torpaq kadastrının mahiyyətini, məqsəd və vəzifələrini izah edir.
**FTN 2.**Dövlət torpaq kadastrının strukturunu və aparılma prinsiplərini şərh edir.
**FTN 3.**Torpaq fondunun kateqoriyalarını və hüquqi rejimini fərqləndirir.
**FTN 4.**Torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsinin nəzəri əsaslarını açıqlayır.
**FTN 5.**Torpaq uçotu və inventarlaşdırılması prosesini izah edir.
**FTN 6.**Torpaq sahəsinin kadastr göstəricilərini təhlil edir.

**FTN 7.**Bonitet balını hesablayır və nəticələri müqayisə edir.
**FTN 8.**Torpaq sahəsinin iqtisadi qiymətləndirilməsini aparır.
**FTN 9.**Kadastr plan və xəritələrini oxuyur və praktik tətbiq edir.
**FTN 10.**Torpaq ehtiyatlarının səmərəli istifadəsi üzrə əsaslandırılmış təkliflər hazırlayır.

## XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

## XV. Kollokvium sualları:

### I. Kollokvium sualları

1. Torpaq kadastrının aparılmasının zəruriliyi və pretmeti
2. Torpaq kadstrının tarixi.: Genetik torpaqşünaslığa qədərki dövr
3. Sovet dövründə SSR-i torpaq kadastrının inkişafı
4. Sovet dövründə Azərbaqcanda torpaq kadastrının inkişafı
5. Torpaq kadastrının növləri
6. Torpaq kadastrının əsas prinsipləri və sənədləri sistemi.
7. Dövlət torpaq kadastrının obyekti və əsas prinsipləri
8. Dövlət torpaq kadastrının əsas kateqoriyaları
9. Kənd təsərrüfatı yerlərinin mülkiyyət formaları üzrə paylanması və (uqodiyalarının) təsnifatı
10. Torpaq kadastrının aparılması qaydaları və əsas mahiyyəti
11. İnzibati rayonun torpaq kadastrının məzmunu, məqsədi və sənədləri
12. İnzibati rayonda torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı və qiymətləndirmə işləri
13. Torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı
14. Torpaqların kəmiyyət və keyfiyyətcə qeydiyyatı.
15. Torpaqların bonitirovkası

### II. Kollokvium sualları

1. Əsas bonitet şkalasının tərtibi
2. Tip və yarımtip yekun bonitet skalalarının tərtibi
3. Torpaqların aqroistehsalat qruplaşdırılması
4. Torpaq rentasının formaları (diferensial və mütləq)
5. Torpaqların iqtisadi qiymətləndirilməsinin mahiyyəti
6. Torpaqların normativ qiymətləndirilməsi
7. Torpaqların pulla qiymətləndirilməsi
8. Torpaq kadastr rayonlaşdırılmasının mahiyyəti
9. Xarici ölkələrdə torpaq kadastrı işləri.
10. Torpaq kadastr tədbirlərini tənzimləyən hüquqi normativ aktlar.
11. Ənənəvi torpaq kadastr xəritələri.
12. Torpaq münbitliyinin müqayisəli qiymətləndirilməsi
13. Torpaq kadastr xəritələrinin tərtibində coğrafi informasiya sistemlərinin (CİS) tətbiqi.
14. Daşınmaz Əmlak kadastrı və ünvan reyestr xidməti
15. Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyi

## XVI.Fənn üzrə imtahan sualları

1. Torpaq kadastrının aparılmasının zəruriliyi
2. Torpaq kadastrının aparılmasının predmeti.
3. Torpaq kadstrının tarixi.: Genetik torpaqşünaslığa qədərki dövr
4. Sovet dövründə qədərki, Rusiya torpaq kadastrının inkişafı.
5. Sovet dövründə SSR-i torpaq kadastrının inkişafı
6. Sovet dövründə Azərbaqcanda torpaq kadastrının inkişafı
7. Torpaq kadastrının növləri

8. Torpaq kadastrının əsas prinsipləri.
9. Torpaq kadastr sənədləri sistemi.
10. Dövlət torpaq kadastrının obyekti
11. Dövlət torpaq kadastrının əsas prinsipləri
12. Dövlət torpaq kadastrının əsas kateqoriyaları
13. Kənd təsərrüfatı yerlərinin (uqodiyalarının) təsnifatı
14. Kənd təsərrüfatı yerlərinin və mülkiyyət formaları üzrə paylanması.
15. Torpaq kadastrının aparılması qaydaları.
16. Torpaq kadastrının aparılmasının əsas mahiyyəti
17. İnzibati rayonun torpaq kadastrı
18. İnzibati rayonun torpaq kadastrının məzmunu, məqsədi və sənədləri
19. İnzibati rayonda torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı və qiymətləndirmə işləri
20. Torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatı
21. Torpaqların kəmiyyət və keyfiyyətcə qeydiyyatı.
22. Torpaqların bonitirovkası
23. Əsas bonitet şkalasının tərtibi
24. Geniş (Açıq) və yekun bonitet şkalalarının tərtibi.
25. Tip və yarımtip yekun bonitet skalalarının tərtibi
26. Torpaqların aqroistehsalat qruplaşdırılması
27. Torpaq rentası
28. Torpaq rentasının formaları (diferensial və mütləq)
29. Torpaqların iqtisadi qiymətləndirilməsi
30. Torpaqların iqtisadi qiymətləndirilməsinin mahiyyəti
31. Torpaqların normativ qiymətləndirilməsi
32. Torpaqların pulla qiymətləndirilməsi
33. Respublika ərazisinin torpaq kadastr rayonlaşdırılması.
34. Torpaq kadastr rayonlaşdırılmasının mahiyyəti
35. Xarici ölkələrdə torpaq kadastrı işləri.
36. ABŞ-da və Kanadada torpaq kadastr işləri
37. İngiltərədə və Fransada torpaq kadastr işləri
38. Torpaq kadastr tədbirlərini tənzimləyən hüquqi normativ aktlar.
39. Torpaq islahatı haqqında (16 iyul 1996) qanunun torpaq kadastrının aparılmasına təsiri
40. Ənənəvi torpaq kadastr xəritələri.
41. Torpaq münbitliyinin müqayisəli qiymətləndirilməsi
42. Torpaq kadastr xəritələrinin tərtibində coğrafi informasiya sistemlərinin (CİS) tətbiqi.
43. Dövlət torpaq kadastrını həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı.
44. Daşınmaz Əmlak kadastrı və ünvan reyestr xidməti
45. Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyi

S/F “Torpaq kadastrı” fənninin sillabusu 6007008 - “Torpaqşünaslıq və aqrokimya” ixtisasının tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Fənn sillabusu “Aqrar elmlər ” kafedrasında müzakirə edilərək, təsdiq edilmişdir (7 yanvar 2026 - cı il protokol № 05).

Fənn müəllimi: dos. Ə.M.Cəfərov

Laboratoriya müəllimi: m.E.O.Şükürov

Kafedra müdiri: dos. İ.C.Kərimov